FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

**UOT 316.6**

# BULLİNQ DESTRUKTİV SOSİAL-MƏDƏNİ TƏZAHÜR KİMİ

**Mehin NƏSİBOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 23 yanvar 2025; çapa qəbul edilmişdir: 1 fevral 2025; online-da çap edilmişdir: 15 may 2025.

Received: 23th of January, 2024; accepted: 1th of February, 2024; published online: 15th of May, 2025.

**Açar sözlər:** *bullinq, konflikt, ziddiyyət, destruktiv davranış, münaqişə*

## Giriş

Sosial və psixoloji davranış növü olan bullinq və münaqişə cəmiyyətin aktual problemidir. Konflikt, adından məlum olduğu kimi, bir və ya bir qrup insanın qarşılıqlı toqquşmasıdır. Daha aydın desək, tərəflərin ziddiyyətli mübarizəsidir. Lakin bullinq bir şəxsin, bir insan və ya qrup üzvləri tərəfindən təklənərək istər sözlü, istərsə də fiziki basqıya məruz qalmasıdır.

Göründüyü kimi, bullinq və konflikt anlayışları bütövlükdə tam fərqli qeyri-adekvat davranış formalarını əks etdirir.

Bullinq anlayışı leksikona ötən əsrlərdən daxil edildiyindən bəzi insanlar bullinqin hansı mənalar kəsb etdiyini anlaya bilmirlər. Zaman keçdikcə bullinq elm adamları tərəfindən araşdırılmış nə kimi mənalar ifadə etməklə bərabər, onun emosional travmaya səbəb olması da müəyyən edilmişdir.

Bullinq orta təhsil müəssisələrində kiçik yaş qruplarından başlayaraq, yuxarı siniflərə qədər şagird və yeniyetmələr arasında baş verən destruktiv davranış növüdür. Bullinq məktəblinin psixoloji gərginlik yaşamasına, akademik göstəricilərinin zəifləməsinə, məktəbə getmək istəyinin olmamasına və ən sonda özünə qəsd ilə nəticələnən davranış formasına qədər ağır nəticələrə gətirə bilir. Məhz bu səbəbdən bullinqi psixoloji terror adlandırılar. Bullinqlə üzləşən yeniyetmə və ya şagird cəmiyyətdən və ya dost çevrəsindən izolyasiya edilərək tək qalmağı üstün tutur, çünki o, bullerin psixoloji təsiri altında olur.

Qədim zamanlardan müasir dövrümüzə qədər konflikt cəmiyyətin aktual problemlərindən biri olmaqda davam edir. Sürətlə qloballaşan müasir cəmiyyətdə daima münaqişələr təzahür edir və gündəlik həyatın bir hissəsi kimi özünü göstərir.

## 1. Bullinq destruktiv davranış forması kimi

Dünya üzrə uşaqların üçdə bir hissəsinin bullinq hadisəsi ilə üzləşdiyi təxmin edilir. Bullinq hər yerdə sinif otağından virtual məkana qədər baş verə bilir. UNESCO-nun Statistika İnstitutu bildirir ki, bullinqin gənclər arasında yayılmasına görə 7% Tacikistanda, 74% Samoadadır. Demək olar ki, ötən illərdə uşaqların 20%-i Amerika Birləşmiş Ştatlarında və Birləşmiş Krallıqda bullinqə məruz qalıblar (8). Uşaqların 10%-dən çoxu 6 ay

**doktorant, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*e-mail:* mehin_nasibova@mail.ru
**https://doi.org/10.30546/25194011.2025.14.2.1012**

davam edən bullinqin təsiri altında olublar (9). Bullinqin qurbanları arasında oğlan və qızların göstəriciləri bənzərdir və getdikcə göstəricilərin yaş həddi azalmağa başlayır, belə ki, 14-16 yaşlı uşaqlarla müqayisədə 9-13 yaşlı uşaqlar iki dəfə çox bullinqin təsirinə məruz qalırlar.

Bullinqin baş verməsi və hətta onun şahidi olmaq da şagirdlər üçün risk faktorudur. Təcrübələr göstərir ki, şagirdlərin yarı hissəsindən çoxu ibtidai sinifdə təhsil aldıqları müddətdə bullinqin şahidi olurlar, həmin təhsil alanlar yuxarı sinifdə özləri buller rolunda olurlar (10).

İbtidai sinifdə təhsil alan III-IV sinif şagirdləri ötən tədris ilinə nisbətən kollektiv daxili münasibətlərə olduqca həssas yanaşırlar. Kollektivdə şagirdin tutduğu mövqe onun üçün vacib faktor rolunu oynayır, şagirdin emosional həyatına və müvazinətinə təsir edir (1, s.36).

Təcrübələr göstərir ki, məktəbli bullinqin şahidi olduqda baş verən vəziyyəti kənardan izləyərək heç bir müdaxilə etmir, yəni şahidi olduğu bullinq hadisəsi barədə heç kimə bildirmir, çünki özü bullinq qurbanı olmaqdan qorxur. Həmçinin bir vaxtlar bullinqin təsirinə məruz qalan uşaq da bullinqin şahidi olarsa kənardan vəziyyəti izləyir və köməklik etməkdən çəkinir, ona görə ki, təkrar bullinq qurbanı olmaqdan ehtiyat edir.

Azərbaycan məktəblərinin birində aparılan sorğu zamanı əldə edilmiş bullinq halına nəzər salaq. Belə ki, orta təhsil müəssisəsində ikinci sinifdə təhsil alan 8 yaşlı məktəbli qız sosial və sözlü bullinqlə üzləşdiyini belə ifadə edir: *“Saçlarım qısa olduğu və eynəkdən istifadə etdiyim üçün yoldaşlarım mənə “erkək Fatma”, “dörd göz”, “sən axmaqsan, 1-ci sinfə get” deyirdilər. Belə müraciət üsullarına görə çox pis olurdum və mən onlara nə etmişəm axı? – deyə özümə sual ünvanlayırdım. Bullinqinə məruz qaldığım iki şagird başqalarının mənimlə oynamağına icazə vermirdi və mən həmişə tək qalırdım. Özümü tənha hiss edirdim və məktəb mühiti mənim üçün darıxdırıcı məkana çevrilmişdir. Təhsil nailiyyətlərim ön planda idi, lakin sosiallaşmaqda çətinlik çəkirdim, çünki bullinqin yaratdığı psixoloji təsirin altında idim. Ancaq bu gərginliyin davam etməməsi üçün məktəbin psixoloqu ilə daima münasibət saxlamaqla məsələ həllini tapmış oldu”.*

## 2. Bullinqlə mübarizə metodikası

Məktəb psixoloqu risk qrupuna daxil olan və çətin tərbiyə olunan şagirdlərlə mütəmadi fərdi sorğu keçirərək, şagirdlərin rastlaşdığı problemlərin həllinə nail olmalıdır. Psixoloq sosiometriya və digər müxtəlif metodlardan istifadə etməklə çətin tərbiyə olunan və risk qrupuna daxil olan şagirdlərlə qrupdaxili münasibətləri müəyyən etməklə, onların problemini yoluna qoyur. Sosiometriya metodu qrupda münasibətlərin ölçülməsi mahiyyətini daşıyır. Sosiometriya metodu ilk dəfə Amerika sosial psixoloqu Con Moreno tərəfindən yaradılmışdır. C.Morenoya görə, qrupdaxili münasibətlərin uyğunluğu onun yalnız bütöv xarakteristikası ilə deyil, həmçinin qrupda təmsil olunanların ruhi-mənəvi vəziyyəti ilə müəyyən olunur (3, s. 168).

Azərbaycan təhsil sistemində şagirdlərin bir-birini tanımasını təmin etmək və şagirdlərarası dostluq münasibətini möhkəmləndirmək məqsədilə müəllimlər tərəfindən tədrisin təşkili zamanı “Buzqıran strategiyaları” adlı təlim üsulu təşkil edilir. Bu təlim üsulunun şagirdlərarası gərginliyə son qoymaq, empatiya hissini formalaşdırmaq, ünsiyyət bacarıqlarını inkişaf etdirmək, bir-birinə inam yaratmaq və başqa üstünlükləri mövcuddur. Buzqıran şagird-şagird və müəllim-şagird münasibətini tənzimləmək üçün ən effektiv təlim vasitəsi olub, tədris ilinin əvvəlində təşkil edilir, lakin ehtiyac olarsa müxtəlif vaxtlarda da istifadə edilə bilər. Buzqıran strategiyasının tətbiq formaları belədir: şagirdlər özləri haqqında müxtəlif məlumatı dairəvi masa arxasında qarşı-qarşıya əyləşərək bölüşür və bir-birinə sual ünvanlayırlar. Beləliklə, mənfi münasibətə söykənən qeyri-adekvat davranış formasına Buzqıran strategiya ilə son qoymaq mümkündür.

İbtidai siniflərdən başlayaraq, məktəblilər arasında ünsiyyət bacarıqlarını formalaşdıran oyunlar keçirilməlidir. Çünki oyunlar zamanı öz yoldaşları ilə ünsiyyətə girmək, təşəbbüskarlıq və kommunikasiya bacarıqları məktəblilərdə daha da inkişaf edir, onlar bir-birinə qarşı hər zaman həssas, qayğıkeş yanaşırlar və etik qaydalara riayət edərək hərəkət edirlər (2, s. 257).

Sözlər bəzən fiziki travmalardan daha çox iz buraxır. Yaşıdlar arasında zarafatlaşmaq, dalaşmaq, mübahisə etmək böyüklərdən fərqli olaraq, daha tez həllini tapır. Lakin bəzən bu hallar təkrarlanan və sərhədi aşan olursa, o zaman uşaq tərəfindən zorakılıq kimi mənimsənilə bilir.

- Ləqəblə çağırılmaq;
- Lağa qoymaq;
- Utandırıcı zarafat.

D.Leyn və Tatum məktəbli bullinqini – şagird və ya şagirdlər tərəfindən törədilən, sıxlıqla davam edən, özünümüdafiə etmək iqtidarında olmayan şagirddə emosional gərginlik yaradan fiziki və ya psixi zorakılıq kimi təsvir etmişlər (7, s. 12).

Statistik araşdırmalara əsasən müəyyən etmək olar ki, hər il çoxlu sayda şagird öz həmyaşıdları və məktəb yoldaşları tərəfindən bullinqin əks və ya mənfi təsirlərinə məruz qalır. Ümumdünya üzrə göstəricilərə diqqət etsək görərik ki, təhsil alanların 20%-i məktəb mühitində bullinqin zorbalıq, qısnama, hədə-qorxu kimi formalarına məruz qalan 12-18 yaş aralığını əhatə edən məktəblilərdir, bullinqi törədənlər isə 30%-i təşkil edirlər. Tədqiqat nəticəsində məlum olmuşdur ki, təhsilalanların 85%-i bullinqin mövcudluğunun şahidi olurlar (6, s. 3).

### 3. Konfliktin şəxsiyyətlərarası təzahürü və təsir aspektləri

Yuxarıda qeyd edilən məlumatlardan aydın oldu ki, bullinq ən çox məktəb mühitində sıxlıqla rast gəlinən qeyri-adekvat davranış növüdür. Bəs, konflikt hansı mənalar kəsb edir? Bullinqlə bənzər aspektləri hansılardır? Konflikt barədə məlumatları təsvir etməzdən öncə demək mümkündür ki, konflikt – tərəflərin qarşılıqlı toqquşması və şəxslərin fikir birliyinə gələ bilməməsidir.

Konflikt anlayışını eşitdikdə düşüncədə qeyri-qənaətbəxş fikirlər yəni mübahisələr, daxili ziddiyyətlər, anlaşılmazlıq, ümidsizlik, təhlükə, gərginlik və digər hisslər formalaşır. Qeyd edilən faktlara əsasən demək olar ki, münaqişə mənfi münasibətə söykənən destruktiv davranış formasıdır. Münaqişənin mövcudluğu qədim dövrlərdən çağdaş dövrümüzə qədər öz aktuallığını qorumaqda davam edir. Ötən əsrlərdən mütəxəssislərin konfliktə yanaşma tərzləri birmənalı olmuşdur. Bəzi elm adamları konflikti neqativ, digərləri isə özünümüdafiə güc balansı olaraq təsvir etmişlər. Əksər konfliktin mərkəzində tərəflərin biri-birinin maraqlarına zidd fikirlərinin olması və ya məqsədə çatma istəklərinin uyğunsuzluğu özünü göstərir.

Münaqişə – rəqibin neytrallaşdırılması, ona zərbə vurulması və onun məhv edilməsini qarşıya məqsəd qoyan konflikt vəziyyəti və bu vəziyyətin açıq toqquşmaya səbəb olacaq dərəcədə genişlənməsi, sərvət uğrunda və ya konkret status uğrunda mübarizədir.

Konflikt latın dilində *"confliktus"* sözündən olub, hərfi mənası toqquşma, qarşı-qarşıya gəlmə və ziddiyyət deməkdir (11). İnsanlarda fikir ayrılığı, maraq və mövqelərinin fərqliliyi və ya hər hansı məsələyə müxtəlif nöqteyi-nəzərdən yanaşma tərzi tərəflər arasında ziddiyyətə sövq edir.

Demək olar ki, münaqişəyə həyatın bütün sahələrində – iqtisadi, elmi, mənəvi, sosial və s. rast gəlinir. Sürətlə qloballaşan cəmiyyətdə münaqişələrin baş verməsi normal vəziyyət hesab edilir, çünki konflikt insan həyatının ayrılmaz hissəsidir. İnsanların baş vermiş hadisə ilə qeyri-şərtsiz razılaşması münaqişə vəziyyətinin yaranmasına gətirib çıxarır.

Qədim dövrlərdən etibarən konfliktə yanaşma tərzi müxtəlif olmuşdur. Bəzi mənbələrdə münaqişənin varlığını inkişafa səbəb olan vəziyyət, digər mənbələrdə isə ziddiyyətlərin nəticəsində yaranmış problemlər kimi izah etmişlər.

Konflikt problemi ilk dəfə b.e.ə. VII-VI əsrlərdə Çin filosofları tərəfindən tədqiq edilmişdir. Onlar təbiət və cəmiyyətin inkişaf mənbəyini ziddiyyətlərin mübarizəsində görürdülər. Qədim Yunanıstanda isə ziddiyyətlər və onların əşyaların yaranmasında rolu haqqında təlim yaranmışdır. Konfliktlərin araşdırılmasına N.Makiavelli böyük töhfə vermişdir. O, ictimai həyatın inkişafında ziddiyyətlərin rolunu müsbət qiymətləndirmiş və bu barədə fikirlərini Roma tarixinə həsr edilmiş əsərlərində qeyd etmişdir. Həmçinin, N.Makiavelli müxtəlif mərhələli konfliktləri nəzərdən keçirmişdir (5, s. 188).

Münaqişə anlayışını ilk dəfə elmi ədəbiyyata alman sosioloqu G.Zimmel gətirib və bu elmi "konfliktologiya" adlandırılıb. Konfliktologiya haqqında ilkin təsəvvürlər XIX əsrin sonuna, yaranması isə XX əsrin əvvəllərinə təsadüf edir (4, s. 418).

Sosial münaqişə nəzəriyyəsinin banisi hesab edilən G.Zimmel cəmiyyətdə münaqişələrin qaçınılmaz və universal olduğunu bildirmişdir. G.Zimmelin fikrincə, "münaqişə adicə maraqların toqquşmasını yox, nəyinsə daha əhəmiyyətlisini, yəni insanların instinktlərinin əsasında yarandığını ifadə edir". G.Zimmel "İnsan-yağıdır" əsərində belə fikir irəli sürmüşdür: "Şəxsiyyət başqasına məruz qalmadığı halda belə, yalnız digərlərinin özünüifadə edilməsinə reaksiya verərək, fərqli mövqe tutmaqla özünü təsdiqləyə bilir; özünü təsdiqləməyin ən birinci yolu – ilkin instinkt, yəni başqasının inkarıdır" (12). Münaqişə nəzəriyyəsini yaratmaqda G.Zimmelin əsas məqsədi münaqişənin stimul rolunu oynayan əhəmiyyətli bir amil olduğunu nəzərə almasıdır.

Münaqişə müddətində tərəflərarası gərginlik uzun müddət davam edə bilər. Lakin bu gərginlik fərdlərin narazılığı və ya razılıqlı anlaşması ilə nəticələnə bilər. Sosioloq və psixoloqlar münaqişə zamanı mövcud olmuş gərginliyin nəticəsinin müsbətə doğru aparan addım olduğunu vurğulamışlar. Bu fikirlər daha çox siyasi və müharibə münaqişələrinə aid edilir, çünki qarşıdurma rəqiblərdən birinin qalibiyyəti ilə nəticələnir. Adətən, uzun müddət davam edən münaqişənin sona çatması tərəflərin sülhündən əlavə üçüncü şəxsin müdaxilə etməsi ilə sonlanır. Daha aydın desək, tərəflər qarşıdurma müddətində razılığa gəlməkdə çətinlik çəkərlərsə, üçüncü şəxsin müdaxiləsi ilə problem həll yolunu tapmış olur.

İngilis sosioloq və psixoloqu H.Spenser konfliktin cəmiyyətin irəliləyişinə sövq edən bir faktor olduğunu bildirmişdir. Baxmayaraq ki, konfliktlər çox vaxt aqressiya, hədə-qorxu, düşmənçiliklə müşayiət olunur, amma sosial inkişafı təmin edən fəaliyyətdir. Konflikt cəmiyyətin bütün sferalarında insanların gündəlik qarşılaşdıqları qaçınılmaz vəziyyətdir (12).

Konfliktlərin təsnifatı bir neçə formada özünü göstərə bilir. Təsnifatlar əsasən subyekt və təsir zonalarına uyğun olaraq aparılır. Təsnifatlar sırasına daxildir: (5, s. 195).

1) Şəxsi konflikt;
2) Şəxslərarası konflikt;
3) Qruplararası konflikt;
4) Mənsubluq konflikti;
5) Xarici mühitdə konflikt.

Şəxsi konflikt adından göründüyü kimi şəxsin daxilində onun fərdi şüur səviyyəsində baş verən konfliktdir. Şəxsiyyətdaxili konflikt çətin həll olunan ziddiyyətdir, şəxsin maraqları, motivləri, ziddiyyətləri və tələbatları ilə üst-üstə düşməyən konflikt sırasındadır. Bariz nümunə olaraq personalın işinə adaptasiya ərzində üzləşdiyi çətinlikdir ki, bu zaman rəhbər və ya müavin tərəfindən verilən tapşırığın yerinə yetirilməsi yəni, istehsalat tələbləri ilə işçinin şəxsi maraqları və dəyərləri uyğunsuzluq təşkil edir. Məsələn, istirahət

gününü özünə həsr etmək istəyində olan işçiyə rəhbər qeyri-iş günündə vacib bir problemi həll etməyi tapşıra bilər.

Bullinq və konfliktin bənzər xüsusiyyətləri hər iki qeyri-adekvat davranış növünün şəxslərarası mövcud olmasıdır. Qeyd edilməli olan əsas nüans odur ki, bullinq birtərəfli basqıdır, yəni bullerin təsirinə məruz qalan qurban acizlik etməklə asanlıqla təslim olur. Ancaq konflikt şəxslərarası mövcud olduqda hər iki tərəf qarşılıqlı mübahisə zəminində olur.

Şəxsiyyətlərarası münaqişə iki və daha artıq şəxsin qarşı-qarşıya gəlməsidir. Eyni zamanda şəxsiyyətdaxili konfliktlə sıx bağlıdır. Digər konflikt formalarına nisbətdə şəxsiyyətlərarası münaqişəyə tez-tez rast gəlinir. Şəxsiyyətlərarası toqquşma iş həyatında və günlük yaşam tərzində insanlar arasında mövcud olur. Bəzən fərdlər bir-birini anlamaqda və ya hər hansı məsələ barədə düzgün qərar vermək, anlaşmaq çətin olduqda şəxsiyyətlərarası konflikt baş verir. Burada nəzərə çarpan məqam insanların fərdi ziddiyyətləridir. Daha aydın desək, müxtəlif xarakterə sahib insanlar normal həyatda çox vaxt ortaq fikrə gələ bilmədiklərindən münaqişəyə girirlər və insan sayından asılı olmadan tərəflər eyni güc balansında olurlar.

Şəxsiyyətlərarası səviyyədə konfliktin funksiyaları yenə də ziddiyyətlidir. Konfliktin əksər funksiyaları mənfi nəticələr ilə əlaqələndirilir, ona görə ki, münaqişələr ünsiyyətin və davranışın müəyyən qaydalarını pozur.

**Nəticə**

Mövzu üzrə araşdırma nəticəsində məlum olur ki, destruktiv davranış növü kimi bullinq və konflikt arasında nəzərəçarpan fərqlər və oxşarlıqlar çoxdur. Tarixə baxış edərkən bullinqin keçən əsrlərdən ümumişlək ifadə olduğu, konfliktin isə b.e.ə mövcudluğu məlum olur. Bullinq termini orta təhsil müəssisələrində təhsilalanlar arasında sıxlıqla rast gəlinən sosial-psixoloji davranış növüdür, bir şagirdin istər öz yoldaşları, istərsə də özündən yaşca böyük məktəbli tərəfindən bullinqə məruz qalmasıdır. Bu zaman bullerin xaricedici hərəkətinə məruz qalan qurbanın özünümüdafiə mexanizmi zəifləyərək bullerin təsiri altına düşür.

Sadalanan fərqliliklərlə yanaşı, bullinq və konfliktin bənzərliyi odur ki, uzun müddət davam etməklə fərdlər arasında emosional travma ilə nəticələnə bilir. Bundan əlavə, hər iki mənfi münasibətə söykənən davranış növü üçüncü şəxsin iştirakı ilə, yəni köməkliyi ilə həll yolunu tapır.

**ƏDƏBİYYAT**


1. Əlizadə Ə., Əzimov Ə., Quliyev E. Məktəblinin psixologiyası. Bakı: Renessans, 2015, 114 s.
2. Əliyeva H., Məmmədov P., Əlixanova G. Təhsildə psixoloji xidmət. Bakı: Elm və təhsil, 2011, 430 s.
3. Əmrahlı L. Psixoloji xidmət III, Psixodiaqnostika. Bakı: MBM, 2014, 292 s.
4. Salmanova K . Ümumi psixologiya. Bakı: Füyuzat, 2022, 448 s.
5. Sosiologiya. Dərs vəsaiti. Bakı: MBM, 2005, 295 s.
6. Бердышев И.С. Лекарство против ненависти // Первое сентя, 2005, №8, с. 3-14.
7. Школъная травля (буллинг) // Детская и подростковая психотерапия, Санкт-Петербург, 2001, с. 240-274.
8. United Nations Educational, Scientific, and Cultural Organization. Behind the numbers: ending school violence and bullying. 2019. (https://unesdoc.unesco.org/ark:/48223/pf0000366483 accessed 11 January 2021).
9. Wolke L. Long-term effects of bullying. Arch Dis Child 2015; 100: 879e85 (https://doi.org/10.1136/archdischild-2014-3066670)

10. Bowes M. Chronic bullying victimization across school transitions: the role of genetic and environmental influences. Dev Psychopathol 2013; 25: (https://doi.org/10.1017/S095457941-2001-095)
11. https://www.scribd.com/document/724637665/Konfliktin-sosial-psixologiyas%C4%B1
12. https://unec.edu.az/application/uploads/2017/01/K-rimov-Az-r.doc

***Резюме***

***Мехин Насибова***

***Буллинг как деструктивный социально-культурный феномен***

В статье подчеркивается, что буллинг является формой деструктивного поведения, отмечаются его различия и сходства с конфликтом.

Значение обоих типов поведения можно объяснить следующим образом: буллинг включает в себя систематическое причинение вреда, создание эмоциональной травмы для более слабого человека, действие в условиях дисбаланса и представление собой ненормального аспекта жизни. Конфликт, с другой стороны, является ситуацией, присущей человеческому существованию, которая способствует развитию. Иногда его описывают как тип поведения, возникающий из противоречий и вызывающий негативные последствия, поскольку он основывается не на согласии, а на противостоянии.

Можно сказать, что конфликты встречаются во всех сферах жизни – экономической, научной, моральной, социальной и других. В быстро глобализирующемся обществе возникновение конфликтов считается нормальной ситуацией, поскольку конфликт является неотъемлемой частью человеческой жизни. Безусловное разрешение событий, с которыми сталкиваются люди, приводит к появлению конфликтных ситуаций. Однако буллинг в образовательной среде является долгосрочным психологическим состоянием, переживаемым учениками и подростками.

Различные конфликты и акты насилия влияют на социально-политическую среду во всем мире. На протяжении своей жизни люди всегда будут сталкиваться с межличностными конфликтами. Эти конфликты и акты насилия можно разрешить в рамках определённых вмешательств. Среди школьников одна конкретная форма противостояния решается в виде буллинга. Буллинг, который проявляется как форма насильственного поведения в школьной среде, может создавать напряжение среди учеников, но может быть устранён через сотрудничество психологов, учителей и родителей.

Буллинг и конфликт имеют схожие функции в межличностных отношениях. В результате буллинга, который является формой деструктивного поведения, жертва теряет чувство собственного достоинства, испытывает проблемы со сном, физическое напряжение, такое как мышечные боли, а также снижение академической успеваемости. Долгосрочное и постоянное присутствие конфликтов и буллинга в социальной жизни прокладывает путь к новым, направленным проблемам в обществе.

***Ключевые слова:*** *буллинг, конфликт, противоречие, деструктивное поведение, конфлик*

***Summary***

***Mehin Nasibova***

***Bullying-as a destructive sociocultural phenomenon***

The article highlights bullying as a form of destructive behavior, noting its differences and similarities with conflict.

The meaning of both types of behavior can be explained as follows: bullying involves consistently harming someone, causing emotional trauma to a weaker individual, operating in an imbalanced environment, and representing an abnormal aspect of life. Conflict, on the other hand, is a situation that is inherent to human existence and contributes to development. Sometimes, it is described as a type of behavior resulting from contradictions and causing negative effects, as it is based not on agreement but on opposition.

It can be said that conflict is encountered in all areas of life—economic, scientific, moral, social, etc. In a rapidly globalizing society, the occurrence of conflicts is considered a normal situation because conflict is an integral part of human life. The unconditional resolution of events people face leads to the

emergence of conflict situations. However, bullying in educational settings is a long-term psychological condition experienced between students and adolescents.

Various conflicts and acts of violence influence the socio-political environment worldwide. Throughout their lives, individuals will always encounter interpersonal conflicts. It is possible to resolve such conflicts and acts of violence within the framework of certain interventions. Among schoolchildren, one specific form of confrontation is resolved as bullying. Bullying, which manifests itself as a form of violent behavior in the school environment, can create tension among students but can be eliminated through collaboration between psychologists, teachers, and parents.

Bullying and conflict share similar functions in interpersonal relations. As a result of bullying, which is a form of destructive behavior, the individual who becomes a victim experiences a loss of dignity, sleep problems, physical tension such as muscle pain, and a decline in academic performance. The long-term and persistent presence of conflicts and bullying in social life paves the way for new, directional problems in society.

***Key words:*** *bullying, conflict, tension, destructive behavior, disoutes*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.